*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 133-138*
*https://doi.org/10.59849/2663-4406.2024.1.133*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

*Müstəqillik dövrü çoxmetodlu*
*Azərbaycan ədəbiyyatı*

# Zamanın Elçin teatrı və Elçin teatrının zamanı

**Nərminə Ağayeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
AMEA Memarlıq və İncəsənət İnstitutu
E-mail: nermine2014@mail.ru

**Annotasiya.** Məqalədə görkəmli Xalq yazıçısı Elçinin dramaturgiyası və Elçin teatrı zaman kontekstində təhlilə cəlb edilir. Müəllif Elçin teatrının yaranma mühitini, milli teatr prosesinə gətirdiyi konseptual yenilikləri, yeni dövrə xas davranış tipi və ona adekvat dünyaduyumu, özünəməxsus xarakterlər panoramını dramaturqun pyesləri və onların səhnə taleyi ilə paraleldə araşdırır. Qeyd olunur ki, Elçinin "Ah, Paris, Paris!" (1997), "Mənim sevimli dəlim" (1998), "Mənim ərim dəlidir" ("Diaqnoz "D") (1999), "Poçt şöbəsində xəyal" (2001), "Qatil" (2003), "Arılar arasında" (2008), "Teleskop" (2011), "Şekspir" (2012) pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında, "Salam, mən sizin dayınızam"(1995), "Mənim sevimli dəlim" (1998), "Mənim ərim dəlidir" (2000), "Poçt şöbəsində möcüzələr" (2001), "Cəhənnəm kirayənişinləri" (2009), "Teleskop, və ya yuxuda və gerçəklikdə uçuşanlar" (2012) Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında, "O da aşiq ola..." (2016), "Akvariuma xüsusi sifariş" (2020) pyesləri isə İrəvan Dövlət Azərbaycan Dram Teatrında səhnə həllini tapmışdır. Eləcə də dramaturqun xarici teatr səhnələrində – İngiltərə, Kipr kimi ölkələrdə, o cümlədən Moskva, Sankt-Peterburq, Ankara, İstanbul, Konya, Ərzurumun məşhur teatr səhnələrində oynanılan əsərlərinə, həmçinin absurd tamaşalarına da diqqət yönəldilir.

**Açar sözlər:** Elçin teatrı, absurd dramaturgiya, absurd teatrı, ədəbi cərəyanlar, modern teatr düşüncəsi

**Məqalə tarixçəsi:** göndərilib – 06.02.2024; qəbul edilib – 20.06.2024

# Elchin's theater of the time and the time of Elchin's theater

**Narmina Aghayeva**
Doctor of Philosophy in Art Studies, Associate professor
ANAS Institute of Architecture and Art
E-mail: nermine2014@mail.ru

**Abstract.** The article deals with the investigation of People's writer Elchin's dramaturgy and Elchin's theater in the context of time. The author studies the creation environment of Elchin's theater, the conceptual innovations he brought to the national theater process, the type of behavior

specific to the new era and the worldview adequate to it, the panorama of unique characters in parallel with the dramatist's plays and their fate on the stage. It is noted that Elchin's "Ah, Paris, Paris!" (1997), "My Beloved Crazy" (1998), "My Husband is Crazy" ("Diagnosis "D") (1999), "Dream in The Post Office" (2001), "Killer" (2003), "Among The Bees" (2008), "Telescope" (2011), "Shakespeare" (2012) plays were staged at the Azerbaijan State Academic National Drama Theater, "Hello, I'm Your Uncle" (1995), "My Favorite Crazy" (1998), "My Husband is Crazy" (2000), "Miracles at the Post Office" (2001), "Tenants of Hell" (2009), "Telescope, or Those Who Fly in A Dream And in Reality" (2012) at the Azerbaijan State Academic Russian Drama Theater, "He Will Also Fall in Love..." (2016), "A Special Order for The Aquarium" (2020) at the Irevan State Azerbaijan Drama Theater. Attention is also paid to the dramatist's works performed in foreign theaters – England, Moscow, St. Petersburg, Ankara, Istanbul, Konya, Erzurum, Cyprus, as well as his absurd plays and spectacles.

**Keywords:** Elchin's theater, absurd dramaturgy, absurd theater, literary trends, modern theater thought

**Article history:** received – 06.02.2024; accepted – 20.02.2024

## Giriş / *Introduction*

Çağdaş dövrün dramaturgiyası "mövzu aktuallığı"nın əsarətindən çıxmaq, insanın bəşəri düşüncələrindən daha çox onun dünyanı dəyişəcək əməllərinin teatr vasitələri ilə təqdimini önə çəkir. Bu zaman dramaturgiya ədəbi qayğılarla yanaşı, səhnə sənəti qayğılarını da çəkir. Həmin dramaturgiya ədəbi-estetik konstruksiya etibarilə mükəmməl olmaqla bərabər, "səhnəlik", "teatrallıq" kimi kateqoriyaları başlıca bədii prinsip kimi əsas götürür.

Öz müasirliyi ilə seçilən Elçin dramaturgiyası milli mədəniyyətimizdə yeni teatrın əsasına çevrildi. "Elçin dramaturgiyası milli dramaturgiyamızda indiyə kimi rast gəlmədiyimiz yeni mövzuları, gözlənilməz süjet kombinasiyalarını, düşüncə və hisslərin stereotipdən uzaq bir formada ifadə edilməsilə fərqlənən yeni insan tiplərini, obrazlarını yaratdı" [3]. Elçin pyeslərinin səhnə təcəssümü milli teatr prosesimizə dünya teatr təcrübəsinin mühüm problemlərini qatdı ki, bu, zamanın, dövrün tələbi idi. Zamanın Elçin teatrının yaranışı idi.

## Əsas hissə / *Main part*

Elçinin 1970-ci ildə yazdığı "Poçt şöbəsində xəyal" tragikomediyası yalnız XXI əsrin əvvəllərində böyük səhnədə göründü. Akademik Milli Dram Teatrında təcəssüm etdirilən bu pyes sayəsində teatrla dramaturqun tandemi yarandı. Elçin "Poçt şöbəsində xəyal"dan sonra yazdığı üç pyesini ("Ah, Paris, Paris...", "Mənim sevimli dəlim", "Diaqnoz D" ("Mənim ərim dəlidir") milli klassik dramaturgiya ənənələrini komedi del-arte (italyan) və vəziyyətlər komediyası (fransız) ilə ustalıqla sintez edərək, özünəməxsus bir üslub yaratmağa nail olmuşdur.

Bu pyeslərdə dramaturqun "mövcudluq effekti"nin parlaqlığı, maraqlı dramatik, lirik, komik subyektlərin varlığı, aktual mənəvi konflikt-qarşıdurmalar, yeni dövrə xas davranış tipi və ona adekvat dünyaduyumu yüksək peşəkarlıqla bir-birinə hörülüb. Ştrixləri, detalları, intonasiyaları, süjet gedişatlarını mükəmməl şəkildə seçən dramaturq gah məişət motivləri ilə xəyali romantik çırpıntıların bir-birinə bağlandığı komediyalar yazır, gah da mənəviyyatını, ruhunu, özünü qoruma instinktini itirən obrazlar yaradır.





Məsələn, "Qatil" dramı insan tənhalığı və ondan xilas yollarının axtarılması mövzusuna həsr olunub və sərt daxili strukturu ilə fərqlənir. "Teleskop" tragikomediyasında bu sərtlik çox dərində gizlənibdir və pyes kompozisiya cəhətdən gözlənilməz qurulub.

"Qatil" dramında yaşanılmamış qadın ömrü, hədər gedən qadın taleyi, insanın intim və ictimai həyatı kəndirin bir-birinə möhkəm hörülmüş iki ucu kimi verilir. Dramaturq "Qatil"i sərt, amma mənəvi-əxlaqi rakursdan ibrətli qənaətlə bitirir. Yazıçının önə çəkdiyi problematik mövzu qadın tənhalığı, ümumiyyətlə isə insan mövcudluğunun bu kontekstdə var olmasıdır. Qadın və dünya, qadın və Allah, qadın və insanlıq ("dialoji personalizm") özünün real boyalarla, estetik özəllikləri ilə, bununla yanaşı üzücü yaşamı ilə gerçəkliyin ən acı nöqtələrindən biri olaraq qabardılmış olur.

Elçin öz konsepsiyasını müəyyən etmək üçün rejissorlara məhz Elçin özünəməxsusluğunu elə zəngin bütövlükdə təqdim edir ki, həmin rejissorlar ərsəyə gətirdikləri məhsullarda, müəlliflə yanaşı, məhz özünəməxsusluqlarını da rahat şəkildə təcəssüm etdirə bilirlər. "Qatil" tamaşasının quruluşçu rejissoru Mehriban Ələkbərzadə Elçin dramaturgiyasının bədii-estetik həllini "psixoloji yaşam" janrında həll edir və müsahibələrinin birində deyir: "Mən ilk dəfə idi quruluş verdiyim tamaşada öz daxili dünyamı ifadə etmək üçün imkan tapmışdım. Mən bu əsərə adicə səhnə oyunu kimi deyil, həyatın bir parçası kimi baxıram" [5].

Elçinin Azərbaycan Dövlət Rus Dram Teatrının səhnəsində oynanılan "Cəhənnəm sakinləri" dramında qəhrəmanın tragizmi ondadır ki, o, həmişə öz "mən"indən imtina edib, dövrün və şəraitin tələb etdiyi rolu oynamalı olubdur. Tarixi zamanın (1937-ci il) Kişi obrazına geydirdiyi maska onu şəxsi məsuliyyət, vicdan, namus, şərəf kimi əxlaqi-mənəvi keyfiyyətlərdən məhrum edərək (bu insan özünün "mən"inə sahib çıxmaq xoşbəxtliyindən məhrumdur), normal insana xas olan daxili təbəddülat və çırpıntılardan uzaqlaşdırır...

Elçinin qəhrəmanlar qalereyasında özünü axtaran, həyatda yerini tapmayan, azan, şübhələnən, həyatlarının ən ahıl çağlarında belə dəyişməyə hazır olan ("Arılar arasında" – Dayə, Baba), daim sirli bir hadisənin baş verəcəyinə inanan insanlar çoxdur. Dramaturqun "Şekspir" pyesində hadisə xətti qəhrəmanların daxili hiss-həyəcanları lirik-patoloji çırpıntıları ilə daha da mürəkkəb şəklə düşür, yeni bir məna qazanır. Beləliklə də "Şekspir" pyesində psixiatrik xəstəxananın pasiyentləri (biri Sara Bernar... biri İosif Stalin... biri...) "məşhur" adamların adlarını, qiyafətlərini, iç dünyalarını özəlləşdiriblər və "adi" reallıqdan "coşqun" romantikaya "sıçrayıb" birdən-birə qəhrəman olublar.

"Şekspir" əsəri ədəbi, elmi, dramaturji material olaraq təhlilə və müzakirəyə maraqlı olan əsərdir. Söylədiklərim öz təsdiqini müxtəlif teatrların səhnələrində bu əsərin tamaşaya qoyulması, müxtəlif rejissorların səhnə quruluşu verməsi ilə tapır. Müəllif tərəfindən önə çəkilən insanın daxili ilə fərdiyyətinin konflikti teatr üçün maraqlı təhlil və təcəssüm predmetidir.

Elçinin ədəbi-estetik təqdimi ilə verilən bir xəstəxananın divarları əhatəsindəki xəstələrin özəl dünyası müxtəlif hadisələr burulğanında müxtəlif obrazların səhnə oyununu müəyyənləşdirir. Akademik Milli Dram Teatrının səhnəsində bu tamaşa tanınmış moldav rejissoru Petru Vutkereuya həvalə olunmuşdu. Teatrın təşəbbüsü ilə həyata keçirilən "GUAM-ın teatr məkanı" layihəsi çərçivəsində yaradılan bir əməkdaşlığın əməli nəticəsi olaraq ərsəyə gələn tamaşada quruluşçu rejissor Petru Vutkereunun yaradıcı işində dramaturji materialdan irəli gələn individual insan konsepsiyası – hərəkətin başlanğıcı, ruhun və hisslərin poetikliyi tamaşanın əsas ifadə formulu kimi işlənmişdir.

Dramaturqun pyeslərində güclü lirik, lirik-romantik, tragik, tragikomik zonalar mövcuddur və onlar çox bənzərsiz dramatik strukturun yaranması "Arılar arasında", "Cəhənnəm sakinləri", "Taun yaşayır", "Bolbolustan şahzadəsi, yaxud "Yaşasın imperator böyük Şir III Otibi Molimi Delembor Tır-tır", "Qatil", "Şekspir", "Sənətkarın taleyi" pyesləri onun müxtəlif janrlarda böyük ustalıqla işləmək istedadına ən bariz nümunəsidir. Bu dramaturgiyanın başlıca xüsusiyyətlərinə diqqət yetirsək, burada mövzu, bədii konstruksiya, janr, konflikt və ali məqsəd kateqoriyalarının işlənməsi ustalığını qeyd etməliyik.

"Teleskop" tragikomediyası Elçinin dramaturgiya sahəsində növbəti uğuru idi. Əsərdə bütün hadisə xətti teleskopun üzərində qurulub. Quruluşçu rejissor (Kamran Şahmərdan) həm rejissor yozumu, həm aktyor ifası baxımından modern teatr düşüncəsinə uyğun bir tamaşa ərsəyə gətirmişdi. Burada diqqətçəkən məqamlardan biri baş qəhrəmanının gözü ilə müəllifin özünün teleskopdan cəmiyyətə baxaraq, hər kəsə demək istədiyi "İnsan ol!" diqtəsinin qüdrətidir.

"Elçinin pyesləri, nəinki Azərbaycan teatrlarının repertuarını bəzəyir, həmçinin dünya teatrlarının repertuarını dolaşır. Onun dramaturgiyasını xarici ölkələrdə tanıyırlar, sevirlər və böyük maraqla oynayırlar. Bu tendensiya gün-gündən artmaqda, şaxələnməkdədir" [2, s.45]. İngilis ədəbiyyatşünası, tərcüməçi İan Piertdinin Elçinin yaradıcılığındakı dünyəvilik prinsipləri barədə alimizdə olan yazısı onun yaradıcılıq potensialının geniş imkanlarını isbat edir: "Elçin dünya ədəbiyyatı dəyərlərini, bu sahədəki təcrübəni mükəmməl şəkildə öz yaradıcılıq laboratoriyasından uğurla keçirən çox maraqlı bir yazıçıdır... Rejissor Devid Perri "Şekspir" pyesini oxuyub ona valeh olmuşdu. Onun quruluşunda əsər Londonun Avanqard Teatrında müvəffəqiyyətlə tamaşaya qoyuldu. Elçinin yaşanmış tarixə ironik, paradoksal şəkildə təqdim edilən münasibəti ingilis tamaşaçıları üçün çox maraqlı idi" [2, s.45].

Londonun "Tristan Bates" Teatrında isə Metyu Qoldun quruluşunda "Mənim sevimli dəlim" pyesi ingilis dilində oynanıldı. "St.James" Teatrında "Cəhənnəm sakinləri" pyesinin motivləri əsasında hazırlanmış "Gecə yarısı" ("Midnight") musiqili tamaşasının ingilis rejissoru Matthev Qoldun quruluşunda təqdimatı da Elçin teatrının uğurları sırasındadır.

Onun əsərlərinə dünyanın müxtəlif xalqlarının teatrları ehtiyac duyur. Bu pyeslərin əksəriyyəti Moskva, Sankt-Peterburq, Ankara, İstanbul, Konya, Ərzurum, Krım, Kipr və s. bu kimi dünyanın müxtəlif məşhur teatr səhnələrində uğurla tamaşaya qoyulmuşdur. Və inandırıcı olan budur ki, zaman irəlilədikcə Elçinin özünəməxsus yaradıcılıq qüdrəti ilə ərsəyə gətirdiyi əsərlərinə, məhz xarici teatrlardan daha çox müraciətlər olunacaqdır. Çünki Elçin zamanın fövqündə dayanan dramaturqdur.

Azərbaycan ədəbi-bədii mühitinin və mədəniyyətinin çağdaş mərhələsində əvəzsiz xidmətləri olan nasir və dramaturq, Xalq yazıçısı Elçinin yaradıcılığı iki əsr Azərbaycan ədəbiyyatı, mədəniyyəti və teatrının inkişafını təmin edən ən önəmli faktora çevrilmişdir.

Bu da bir həqiqətdir ki, zamanı qabaqlayan müəllifi öz çağdaşlarının dərk etməsi də asanlıqla ərsəyə gəlmir. Rejissor Mehriban Ələkbərzadə deyir ki: "Elçinin həmişə zamanla bir problemi vardı. Onun qəhrəmanlarının düşündükləri dünya ilə yaşadıqları dünya arasındakı çarpıntılarını heç bir obrazlarda görmürdüm. Bunları iş prosesində həll eləmək də "sözün düzü" çətindir" [5]. Buna baxmayaraq, zaman səddini aşan Elçinin arxasınca irəliləmək meyli və bununla da gələcəyə yeni pəncərələr açmaq istəyi hər bir rejissorun əsas qayəsinə çevrilirdi. Yeni dünyanın qavranılmasına istiqamətlənən bir pəncərə isə Elçinin ilk hekayələrində özünü görükdürürdü və hörmətli filoloq alimimiz Vaqif Yusiflinin yazdığı kimi, "...bu hekayələrdə absurd teatrından gələn poetika az rol oynamır, lakin təqlid, yamsılama, imitasiya səviyyəsinə enmir, mütləq mənada "milliləşir" [1, s.69].

Elçin yaradıcılığının tədqiqatçısı Məryəm xanım Əlizadə "Zamanın absurdu və yaxud absurd zamanı" məqaləsində [4] "Ah, Paris, Paris!", "Mən sənin dayınam", "Mənim sevimli dəlim", "Mənim ərim dəlidir", "Bolbolustan şahzadəsi", "Şekspir", "Teleskop", "Cəhənnəm sakinləri", "Şeytan əməlləri" pyeslərini də absurd silsilə zəncirinə daxil etmişdir.

Elçin dramaturgiyası C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının repertuarında da xüsusi yer tutur. 19 dekabr 2016-cı ildə ("Multikulturalizm – 2016" ili çərçivəsində) "O da aşiq ola..." adlı multikultural teatr layihəsi mövsümün ilk tamaşası oldu. Həmin il respublikamızda Multikulturalizm ili elan olunduğu üçün multikultural kontekstdə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə orijinal bir layihə üzərində iş aparıldı. Layihə özünün genişmiqyaslı mahiyyəti ilə seçilirdi. Layihədə üç xalqın ədəbi nümunələri, üç xalqın nəhəng ədiblərinin əsərləri cəmləşmişdi. Bunlar Anton Pavloviç Çexovun "Ayı", Elçinin "O da aşiq olub yaza dünyada" və Boris İoseleviçin "Yelləncəkdə iki nəfər" əsərləri idi ki, hər üç əsərdə insan amili, eşq, sevgi, həyata bağlılıq məsələləri bir məzmun ətrafında bu layihədə birləşirdi. Və Azərbaycan ədəbi-mədəni mühitinə yaxın olan həm Azərbaycan, həm rus, həm yəhudi xalqlarının ədəbi nümunələrinin bir səhnədə, bir arada olması və "O da aşiq ola..." adlandırılması onu ifadə edir ki, hər bir xalq üçün, milliyyətindən asılı olmayaraq, insan faktoru, insana sevgi, insana bağlılıq, insani meyarların ön plana çəkilməsi bəşəri məsələdir və bu layihədə də məhz həmin bəşəri məsələyə diqqət öz əksini tapmışdır.





Hər bir insanın içində ölmüş hisslərin, duyğuların təlatümü yaşayır. Tamaşada cərəyan edən hadisələrin axınında bu təlatüm hər üç əsərdəki bir-birini dünyalarca sevən, dəhşətli dərəcədə eşqlə bir-birinə bağlı olan gənclərin iç dünyalarının ölmüş hisslərində, duyğularında ehtirasla təcəssüm olunur. Aktyorların çılğın oyunu və onların öz iç dünyalarında formalaşdırdıqları personajların hissləri, duyğuları yüksək peşəkarlıqla canlandırılır. "Bir məkanda birhissəli üç oyun" təyinatı ilə hazırlanan bu bənzərsiz tamaşa absurd cərəyanın işıq seli ilə nurlandırılmışdı.

Elçin müəllim premyeradan sonra kollektivlə görüşündə tamaşa haqqında yüksək fikirlər ifadə etdi. Başqa-başqa məzmunlarda olan, ayrı-ayrı mədəniyyətlərin nümunələrini, tam fərqli düşüncə sahibi olan xalqların bəşər övladı olaraq İnsan kriteriyası məcmuəsində bu cür üzvi birləşdirilə bilinməsini, həm də bir müəllif təxəyyülünün absurd ("O da aşiq ola") fəlsəfəsi-estetik qayəsi çevrəsində cilalana bilinməsini təqdir etdi. Hər üç əsərin bir vəhdətdə bağlanmasına və bir vahid kimi görünməsinə sənətin ecazı kimi dəyər verdi.

Elçinin öz avanqard və ovsunlu ecazı ilə tamaşaçıları tilsimləyən əsərlərindən biri də "Akvariuma xüsusi sifariş" (quruluşçu rejissor Nicat Mirzəzadə) absurd tamaşasıdır. Əsər müəllifin illər öncə yazdığı üç birpərdəli "Qızıl", "Mehmanxana nömrəsində görüş" və "Xüsusi sifariş" pyeslərinin motivləri əsasında müəllifin özü tərəfindən eksplikasiya olunmuşdur. Elçin yeni müstəvidən boy verən "Akvariuma xüsusi sifariş" kontekstində sənət mühitinin zaman və məkan müstəvisinə absurdizmin yeni üfüqləri ilə yol açır. Akademik İsa Həbibbəylinin "Elçin Azərbaycan ədəbiyyatında absurd teatrın əsas yaradıcısı kimi qəbul olunur" [6] fikri daha sonra həmin fikrin davamı olaraq, "Azərbaycan absurd teatrı Elçinin müəlliflik şəhadətnaməsidir" dəqiqləşdirməsi də deyilən fikrin isbatıdır.

## Nəticə / *Conclusion*

Söylədiklərimiz əsasında belə nəticəyə gəlirik ki, mövzu əhatəliliyi, janr müxtəlifliyi ilə seçilən, milli teatrımızın inkişafında və dünya teatrlarına inteqrasiyasında yeni mərhələ yaradan Elçin yaradıcılığı milli dramaturgiyamıza yeni mövzular, mürəkkəb xarakterli yeni insan obrazları gətirdi. Aktual bədii səciyyələri ilə fərqlənən Elçin dramaturgiyası: pyesləri, komediyaları, tragikomediyaları, absurd hekayələri yeni teatr poetikasının formalaşmasına, müasir teatr düşüncəsinin təşəkkülünə güclü istiqamət verən Zamanın Elçin teatrını yaratdı. Elçin teatrının biopolyar zamanı və məkanı isə əbədi hərəkətdədir.

## Ədəbiyyat / *References*


1. Elçin. Zaman səddini aşmış sənətkar. – Bakı, – 2004.
2. Elçin. Biblioqrafiya. – Bakı, – 2013.
3. Əlizadə, M. Elçinin teatr planeti / "525-ci qəzet", 05.05.2018.
4. Əlizadə, M. "Zamanın absurdu və yaxud absurd zamanı" / "525-ci qəzet", 22.05.2019.
5. Ələkbərzadə, M. "Qatil" dünya ədəbiyyatına girə biləcək bir əsərdir / "Ədəbiyyat qəzeti", 09.05.2018.
6. Həbibbəyli, İ. Hekayə rapsodiyasından daha dərin qatlara / "525-ci qəzet", 20.10.2021.

## Театр Эльчина своего времени и эпоха театра Эльчина

**Нармина Агаева**
Доктор фолософии по искусствоведению, доцент
Институт Архитектуры и Искусства НАНА
E-mail: nermine2014@mail.ru

**Резюме.** Предметом анализа статьи является драматургия выдающегося народного писателя Эльчина и его театр в контексте времени. Автор рассматривает среду, в которой зарождался театр Эльчина, концептуальные новации, которые он привнес в национальный театральный процесс, тип поведения, присущий новой эпохе и адекватное ему мировоззрение, а также панораму своеобразных характеров в том же ракурсе, что и пьесы драматурга, а также их сценические судьбы. Отмечается, что пьесы Эльчина «Ах, Париж, Париж!» (1997), «Мой любимый сумасшедший» (1998), «Мой муж чокнутый» («Диагноз «Д») (1999), «Чудеса в почтовом отделении». (2001), «Убийца» (2003), «Среди пчел» (2008), «Телескоп» (2011), «Шекспир» (2012) поставлены в Азербайджанском государственном академическом национальном драматическом театре; постановка пьес «Здравствуйте, я ваш дядя» (1995), «Мой любимый сумасшедший» (1998), «Мой муж чокнутый» (2000), «Чудеса в почтовом отделении». (2001), «Квартиранты ада» (2009), «Телескоп, или летающие во сне и наяву» (2012) осуществлена в Азербайджанском академическом русском драматическом театре, «Если влюбиться…» (2016), «Специальный заказ в аквариум» (2020) – в Иреванском Азербайджанском Государственном Драматическом театре; уделено внимание драматическим произведениям автора, которые получили сценическое разрешение за рубежом: в знаменитых театрах Англии, Кипра, в городах Москва, Санкт-Петербург, Анкара, Стамбул, Конья, Эрзурум. В статье также отмечены абсурдные пьесы народного писателя.

**Ключевые слова:** театр Эльчина, драма абсурда, театр абсурда, литературные направления, модернистское театральное мышление